№ 246 ISSN 1027-3875 1 mart 2008

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

**1995-ci ilin**
**yanvarından ayda 2 dəfə çıxır**

Təsisçi:
**XƏZƏR UNİVERSİTƏSİ**

Baş redaktor:
**Hamlet İSAXANLI**

Baş redaktor müavini:
**Knyaz ASLAN**

Məsul katib:
**Cabir MƏMMƏDLİ**

Redaksiya heyəti:
**Camal MUSTAFAYEV**
**Tofiq ABASQULIYEV**
**Nurəddin RZAYEV**
**Cəmil HƏSƏNLİ**
**Bəhlul ABDULLA**
**Nizami CƏFƏROV**
**Əfqan ABDULLAYEV**
**İsmət ƏHMƏDOV**

Rəssam:
**Rafiq ƏBDÜLRƏHİMOV**

Kompüter tərtibatçısı:
**Zakir N. Yusifoğlu**
Fotomüxbir:
**Xeyrulla HACƏLİYEV**

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*

*Şəhadətnamə: 255*
*İndeks: 67178*
*Sifariş: 191*
*Tiraj: 3000*

**Müəlliflərlə**
**redaksiyanın mövqeyi**
**üst-üstə düşməyə bilər**
**Əlyazmalar geri qaytarılmır**
**Xəzər Universitəsi**
**mətbəəsində çap edilmişdir**

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

**It has been publishing twice**
**a month since January, 1995**

Founder:
**KHAZAR UNIVERSITY**

Editor-in-chief:
**Hamlet ISAXANLI**

Associate editor:
**Knyaz ASLAN**

Editorial assistant:
**Jabir MAMMADLI**

Editorial member:
**Jamal MUSTAFAYEV**
**Tofiq ABASQULIYEV**
**Nuraddin RZAYEV**
**Jamil HASANLİ**
**Bahlul ABDULLA**
**Nizami JAFAROV**
**Afgan ABDULLAYEV**
**Ismat AHMADOV**

Design by:
**Rafig ABDULRAHIMOV**

Computer graphics:
**Zakir N. Yusifoglu**
Photoreporter:
**Kheyrulla HACALIYEV**

*Address:*
*11 Mahsati str., Baku,*
*(near the "Neftchilar" metro)*
*Fax: 498-93-79*
*Phone: 421-79-16*
*421-10-93*

*Certificate: 255*
*Index: 67178*
*Order: 191*
*Copies: 3000*

**The opinions of authors**
**and editors**
**could be independent**
**Manuscripts are not returned**
**Published by**
**Khazar University Press**

# OXUYUN


## Bu nömrədə



Hamlet İsaxanlı - 60 4





"Hələlik gedirik üzü sabaha..." 18



Asma körpülər 24

Rusiyanın yeni Kennedisi? 28





**Uşaq dünyası** 36

# Əzizimiz Hamlet müəllim!

*Ömür yolu müəmmalı,*
*Əsrarəngiz bir cahandır.*
*Ömür yolu yol deyil ki...*
*Ömür yolu bircə andır...*

Cəmisi bircə an olan ömür yolunda qurub-yaratmaq eşqilə çağlamaq, mənəvi bir dünya yaratmaq, nəsillərin iftixarına çevrilmək hər kəsə nəsib olan xoşbəxtlik deyil.

Bu mənada Siz Tanrının seçilmiş bəndələrindənsiniz. Həmişə dalğalanan Xəzərimizin sahilində elm-bilik arzusu ilə coşub-daşan yeni bir "Xəzər" yaratmaqla, təlim-tərbiyənin beşiyinə çevrilən "Dünya" qurmaqla, Vətən naminə gördüyünüz xeyirxah əməllərlə adınızı tarixə yazmısınız.

Zəkanızın, təfəkkürünüzün və ürəyinizin süzgəcindən keçərək qələminizdən kağızlara hopan elmi, ədəbi, bədii yazılarınız Sizi daim ucalarda görmək istəyən könüllərin əziz qonağıdır.

*Vətən, millət şüar deyil, amal olsa,*
*Ortalıqda hünər olsa, kamal olsa,*
*Söz sahibi, hünər əhli xoşhal olsa,*
*Yaşamağa nə var ki!..*

Canınız sağ, üzünüz ağ, yolunuz açıq olsun!

*Xəzər Universitəsinin*
*Sizi sevən kollektivi*

# Dear Professor Hamlet Isaxanli,

It is with great pleasure to congratulate you, your family, friends and colleagues on the occasion of your 60th birthday. I wish I could be present at this celebration, but given the overseas distance, I would like to be with you at least in spirit and share the joy and pride of celebrating your scholarly prolific, educationally productive and humanly loving years of life and service to your country in particular and to the international community of educators in general.

I feel privileged for having the chance to meet you and your family members many years ago in 1991-92 and establishing a friendship that has lasted till now. During those years, I was a first-hand witness to how your pioneering role and forward looking approach made a big difference in the progress and reform process of the higher education in the newly independent Republic of Azerbaijan. I have been one of the admirers of your multi-talented career and scholarly productions as well as your wit, humane and caring personality.

I wish you and yours many healthy, happy and prosperous years to come.

Happy birthday dear Hamlet mualim!

With warmest and best regards,

Nayereh Tohidi, Ph.D.
Professor & Chair
Gender & Women's Studies Department
California State University, Northridge

# Поздравляем!



В отличие от "важных лиц",
Вы - личность! Человек-планета!
Отец и четырёх девиц,
И сына -университета.
Певец незримых нам частиц
Математических таблиц.
Творец всамом себе поэта.
Вы - единица единиц.
Вы Гамлет. Вы - принципиально - принц.
Но кто вы? Так и нет ответа.

*Алла Ахундова*
*поэт, переводчик*
*г. Москва*

*Müsahibə*

# KEÇMƏSƏK ARZUDAN ƏMƏLƏ – MƏHV OLAR, PUÇ OLAR ARZULAR

**Onu başqalarından fərqləndirən əsas cəhətlər gələcəyi müəyyən qədər qabaqcadan görə bilmək qabiliyyəti, zamanın "nəbzini tutmaq" bacarığıdır. O, çoxlarının "böyük, qüdrətli rus dili"nə sitayiş etdiyi dövrlərdə ingilis danışıq dili ilə yanaşı ingilis elmi dilini də öyrənirdi.**

**Sovet təhsil sisteminin dünyada ən mütərəqqi bir sistem, sovet elminin ən qabaqcıl elm kimi qəbul edildiyi zamanlar o, üzünü artıq Amerika Birləşmiş Ştatlarına, Kanadaya, Avropaya tutmuşdu, təhsil sistemində köklü dəyişikliklər, islahatlar haqqında düşünürdü.**

**O, respublikamızda yeni tipli, dövlət tədris müəssisələri ilə rəqabət apara bilən, sorağı çox-çox uzaqlardan gələn özəl universitet yaratdı, onun uğurlu fəaliyyətini təşkil edə bildi. O, qeyri-ordinar ideyaları, təklifləri, hərəkətləri ilə bəzən düzgün başa düşülməyən, bəzən özünə qarşı həsəd yaradan, tükənməz enerjiyə malik, həyatda fəal vətəndaşlıq mövqeyi ilə seçilən yaradıcı bir insandır.**

**O, görkəmli riyaziyyatçı, tanınmış şair, publisist, humanitar və sosial elmlər üzrə tədqiqatçı, tərcüməçi, istedadlı elm və təhsil qurucusu, yüksək intellekt sahibidir.**

**Söhbət Xəzər Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlıdan gedir.**

– *Özünüz haqqında məlumat verməyinizi xahiş edirəm.*

– Orta məktəbi qızıl medalla, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişəm. Təhsilimi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasında davam etdirmiş, əvvəlcə fizika-riyaziyyat elmləri namizədi, sonra isə SSRİ EA V.A.Steklov adına Riyaziyyat İnstitutunda fizika-riyaziyyat elmləri doktoru elmi dərəcələrini almışam, Beynəlxalq Elmlər Akademiyasının, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki seçilmişəm.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetində, Kalqari (Kanada) Universitetində, Marmara (İstanbul) Universitetində işləmişəm.

40-dan çox ölkədə beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış etmişəm.

Yusif Məmmədəliyev mükafatı, Beynəlxalq "Qlobal Keyfiyyət Menecmenti" (London), "Qızıl Qələm", "Səməd Vurğun" mükafatları laureatıyam.

200-dən artıq elmi məqalənin, riyaziyyat, təhsil, dilşünaslıq üzrə monoqrafiya və dərsliklərin, müxtəlif dillərdə nəşr olunmuş şeir kitablarının müəllifiyəm.

– *Məşhur alman riyaziyyatçısı Karl Veyerştrassın "əsl riyaziyyatçı bir az da şair olmalıdır" kəlamına münasibətiniz.*

– Əsl riyaziyyatçı öz elmi kəşflərini intuisiyanın (sezginin) açdığı, göstərdiyi yolla və məntiqin gücü ilə meydana çıxarır. Bu yol asan açılmır, riyaziyyatçının ən böyük çətinliyi məhz kəşfə gedən yolun müəyyən edilməsidir. Şüurlu fəaliyyət, zəka, ağıl gücü çox zaman birbaşa nəticə vermir. Riyaziyyatçı problemin mənşəyi, xarakteri barədə daima düşünür, lakin məsələ həll olunmur. Üzdə aşılmaz səddə dayanan iş bilinc altına keçirilir, sanki riyaziyyatçının bütün bilik, təcrübə və ehtirası öz-özünə, şüursuz surətdə, səs salmadan axtarışla məşğul olur. Riyaziyyatçı sanki məsələdən yorulmuş və onu unutmuş kimidir.

Və bir gün, bir an içində bu gizli iş öz bəhrəsini verir, sanki bir parıltı, bir qığılcım doğur və qaran-

lığı dağıdır, həll olunmayan problemin həlli yolu elan edilir, beləliklə, kəşfə gedən yolu birbaşa məntiqi fəaliyyət deyil, bilincaltı fəaliyyət elan edir. Bu, əslində, beyinə beyin tərəfindən verilmiş bir əmrin icrasıdır, sanki gizli bir qüvvə bu əmri yerinə yetirməklə məşğul olub həlli tapan kimi xəbər verir. Bu xəbərin gözlənilməzliyi, gözləmədiyimiz anda uzun axtarışdan sonra üzə çıxması, parlaması sanki bir məntiqi çalışmanın nəticəsi deyil, təsadüfün, ilham pərisinin gözə görünməsi nəticəsidir.

Bu prosesdə riyaziyyatçının fantaziya gücü, intuisiyası, təxəyyülü həlledici rol oynayır. Artıq məlum olan yolla doğru-düzgün getməyə isə məntiq kömək edir. Yolda rast gələ bilən kəskin enişyoxuşlar, böyük döngələr də yenidən intuisiyanın, fantaziyanın və bilincaltı işin köməyi ilə idarə olunur. Beləliklə intuitiv və məntiqi fəaliyyət birbirini əvəz edir, bir-birinə kömək edir və yol sona qədər qət edilir.

Poeziya bir şah misranın davamı, bir paradoksal gözəlliyin təsviri olduğu kimi, riyaziyyat da paradoksal görünən bir fikrin, bir gözəl ideyanın məhsuludur. Şairin məntiqi formanı və fikri birbirinə qovuşduran alətdir, texnikadır, müxtəlif şairlər bunu fərqli ustalıqla həyata keçirmək qabiliyyətinə sahib olurlar (burada şəxsiyyət, dünyagörüşü və məsuliyyət də rol oynayır).

Riyaziyyatda da eyni cürdür, lakin zənnimcə, riyazi nəzəriyyənin yaranması zamanı məntiqin üzərinə poeziyadakına nisbətən daha ağır yük düşür. Üstəlik riyaziyyatçının həvəslə ehtirası, fərdi xüsusiyyətləri problemin həllinə yanaşmada mühüm rol oynayır. Məhz bu səbəbdən eyni bu problemə müxtəlif riyaziyyatçıların yanaşması bir-birindən fərqlənir, məntiqə hərə öz qəlbindən qopan işıqla yol göstərir.

Əsl riyaziyyatçı güclü intuisiyaya, fantaziyaya, bilincaltı axtarış istedadına, qığılcım doğura bilən qəlbə malik olmalı, bu qığılcımı, bu ani parıltını kəşfə çevirməyi bacarmalıdır. Bu cəhətlərdən kasıb olan riyaziyyatçı əsl riyaziyyatçı deyil, o, qafiyələri yan-yana düzüb söz oyunu ilə məşğul olan zəif şairlərə bənzəyir. Əslində riyaziyyat özü bir poeziyadır, içi fikir dolu, möcüzələr dolu bir poeziya!

Estetik dəyər həm şeirdə, həm riyaziyyatda mühüm əhəmiyyət kəsb edir. Riyaziyyat da, poeziya da gözəlliyin, harmoniyanın vəsfi və sirləri ilə məşğuldur. Puankare riyaziyyatçının bilincaltı fəaliyyət mexanizminin gözəllik və ahəng (harmoniya) axtarışı olduğunu irəli sürürdü.

***– Bəzi özəl universitetlərin rektorları özlərini universitetin sahibi kimi aparırlar və bu məntiqlə də hərəkət edirlər. Siz necə, Xəzər Universitetinin daha çox sahibisiniz, yoxsa rektoru?***

– Mən Xəzər Universitetinin təsisçisi və rektoruyam, bu şübhəsiz ki, adi rektorluqdan çox fərqlidir. Burada qurucu rektor sözü daha yerinə düşür. Dövlət universitetinin rektoru bu vəzifəyə təyin olunub, onu bir qədər sonra kimsə əvəz edəcək. Özəl universitetin sonrakı rektorları da bənzər şəkildə seçiləcək və ya təyin olunacaq (təsisçi və ya himayəçilər heyəti tərəfindən). Beləliklə özəl universitetin ilk rektoru qurucu rektordur (o, təsisçidirsə). O, universiteti "heç nədən", sıfırdan qurur (işə cəlb etdiyi komanda ilə birlikdə). Burada sahiblik hissi deyil, yaradıcı məsuliyyət birinci yerə çıxır. Valideyn öz övladını böyüdür, ona tərbiyə və təhsil verməyə çalışır. Övladın uğurlarında valideynin payı, böyük rolu var. Uşağın uğursuzluğunda da valideynin günahı var. Valideyn övladının sahibidirmi? Əlbəttə, yox! Valideyn qurucudur, memardır. Yaratdığı əsər də onun övladıdır. Mən Xəzər Universitetinin qurucusu olaraq onu düzgün inkişaf etdirməyə çalışıram, onu qoruyuram (bəd əməldən, pis niyyətli müdaxilələrdən), onun gələcəyini parlaq görmək istəyirəm və bu yolda bütün qüvvə və bacarığımı işə salıram. Mənimlə bərabər çalışanlar da qurucudurlar. Onların da bu işdə əməyi var.

***– Xasiyyətinizdə ən xoşunuza gələn və xoşunuza gəlməyən cəhətlər.***

– Bu sualın cavabında özünü bəyənmək notları hiss oluna bilər. Hansı cəhətlərim xoşuma gəlir? Mənə elə gəlir ki, səmimiyəm, ədalətliyəm, həqiqətpərəstəm, doğru danışanam, özümdən güclüyə (hakimiyyət baxımından) baş əyməkdən, onun qılığına girmək hissindən çox uzağam. Deyəsən çox oldu... Əslində bunu mənim özümdən deyil, məni tanıyanlardan soruşmaqla daha dəqiq cavab almaq olardı.

Xoşuma gəlməyən cəhətlərimi də saya bilərəm (bu an yadıma düşənləri). Diqqətsiz ola bilərəm, dostlara, tanışlara, ailə üzvlərinə qarşı... Onlardan vaxtı-vaxtında hal-əhval tutmaq, yoxlamağı, ad

günü və digər əlamətdar hadisələr münasibətilə onları təbrik etməyi, onlara hədiyyə almağı unuda bilərəm.

Ciddi bir işin arxasınca düşəndə bəzi maneələri aşmağa həvəsim olmaya bilər. Məsələn, xüsusi adamlarla xüsusi danışığa getmək, məsələnin həlli üçün bütün vasitələrdən istifadə etmək kimi.

Evdə sadə bir işdən yüngülcə də olsa inciyə bilərəm, hərçənd bu inciklik çox tez keçir.

Bir sıra hallarda böyük, sanballı adam kimi deyil, uşaq kimi hərəkət edə bilərəm. Nədənsə tələbələrə münasibətdə, məsələn, dərs deyəndə, söhbət edəndə özümdən qəti surətdə asılı olmadan, özümü onların yoldaşı, tay-tuşu kimi aparıram, əslində isə mən yaşa dolmuş müəlliməm, rektoram, onların müəllimi kimiyəm. Bir şeirdə bu məsələyə toxumuşam, içimdə həm uşaqlıq, həm gənclik, hərdən bir yaşa dolmuşluq hissinin yaşadığını ifadə etmişəm. Onun kiçik bir parçası:

**Bir baxın: canımda neçə can varmış,**
**Qəlbimi neçə qat duyğular sarmış,**
**Qanım uşaqlıqdan axan qan imiş,**
**Gənclik atəşi də qəlbi yaxarmış.**

**Mənə "sanballı ol" söyləyən dostlar,**
**Başqadır gərdiş –**
**Deməyə nə var?!**
**O qədər də sadə deyilmiş bu iş...**

Fəaliyyətimdə yəqin ki, qismən də xasiyyətimdən irəli gələn bir genişlik və dəyişkənlik var. Çox müxtəlif işlərlə məşğul oluram, çox zaman da eyni vaxtda. Bu, bir işi götürüb asta-asta sonuna qədər çatdırmağıma mane olur; bu həm praktik, həm də yaradıcı fəaliyyətimə xasdır.

*– Qibtə etdiyiniz insanlar varmı?*

– Qəti surətdə yox! Sevdiyim insanlar var, qibtə etdiyim yox.

**Binadan nə Tolstoyçu, nə Marksist,**
**Nə sosialist, nə başqa "ist",**
**Nə Mustafa Kemalistəm.**
**Zaman-zaman onlara mehman olsam da**
**Təklikdən də zövq almışam,**
**Söhbət edib dərs alsam da**
**Mən öz havamı çalmışam.**
**Məni xorda oxutsalar**
**Səsim, sözüm, öz nəğməm var –**
**Dadı-duzu olsa da kəm,**
**Yenə nə qəm?!**
**Mən solistəm ki, solistəm!**

Mən həm riyaziyyat kimi çətin bir elmdə, həm humanitar və sosial elmlərdə, eləcə də bədii yaradıcılıq sahələrində kifayət qədər fəallıq göstərə bilmişəm və bu gün də tələbəlik vaxtımda olduğum qədər, hətta bəzən daha çox çalışa bilirəm. Məndən asılı olan işləri tam və keyfiyyətli görməyə çalışıram. Bu halda niyə kiməsə qibtə etməliyəm? Özümə xüsusi hakimiyyət axtarmamışam, hakimiyyətə can atmıram. Bu yəqin ki, təbiətimdən, yaradıcı işi həyatın mənası və məqsədi olan xoşbəxtliyin əsası hesab etdiyimdən irəli gəlir. Bu səbəbdən hakimiyyətdə olanlara da qibtə etməmişəm. Amma sevdiyim, onlardan öyrəndiyim çox insanlar var, tarixə keçənlər və ya yaşayanlar arasında.

*– Riyaziyyatçı-şairdən şeirsiz ayrılmaq günah olardı.*

– Başa düşürəm. Əziz oxucular üçün riyaziyyata aid bir teorem və nəzəriyyə barədə danışmağımı istəməyəcəkdiniz ki...

Poeziyada nisbətən az rast gəlinən doqquz hecalı kiçik bir şeir:

**Ömür var, mənası – ye, iç, yat.**
**Nə dərin həyəcan, nə fəryad,**
**Sevdasız bir həyat – nə həyat?!**

**Sizə bir söz deyim, nəhayət:**
**Tutuşaq, a dostlar, əl-ələ,**
**Keçməsək arzudan əmələ,**
**Böyük bir təhlükə, qorxu var –**
**Məhv olar, puç olar arzular**
**Könüllər coşub nəğmə deməz,**
**Dünya biz deyənə bənzəməz.**

*–Allah öz sevgisini sənin üstündən əskik eləməsin, əziz Hamlet müəllim!*

*Müsahibəni*
***Xəlil Məcidoğlu***
*aparıb*

Hamlet İsaxanlı - 60

# ƏSL ZİYALI HAQQINDA SÖZ



***Dünyada elə şəxsiyyətlər var ki, onların bənzərsiz həyat və fəaliyyəti saysız-hesabsız insanların ömür yolundan öz zənginliyinə görə seçilir. Fitri istedada malik olan, Tanrı vergisinə layiq görülən belə insanlar bir ömürdə sanki bir neçə ömür yaşayır, məşğul olduqları bütün sahələrdə uğurlar qazanır, özündən sonra gələn nəsillər üçün örnəyə çevrilir və qədirbilən insanların qəlbində özlərinə mənəvi abidə ucaltmağı bacarır. Öz fəaliyyəti boyunca qazandığı elmi nailiyyətləri, maarifçiliyi və bədii yaradıcılığı, humanist insani keyfiyyətləri, tükənməz qurub-yaratmaq eşqi, sözü, əməli və ziyalılığı ilə geniş ictimaiyyət arasında dərin hörmət və inam qazanmış belə nadir şəxsiyyətlərdən biri professor Hamlet İsayevdir (İsaxanlıdır).***

## Elm və təhsil təşkilatçısı

Professor Hamlet İsaxanlı beynəlxalq aləmdə geniş şöhrətə malik riyaziyyatçı alim, elm və təhsil təşkilatçısı, humanitar və sosial elmlər üzrə geniş əhatəli tədqiqatçı, şair və maarifçi kimi şöhrətlənmişdir. O, son 15 ildə yeni dünya sistemində ən məşhur elm-təhsil təşkilatçıları sırasındadır. Hamlet İsaxanlı UNESCO, NATO, Avropa Şurası kimi beynəlxalq qurumların keçirdiyi tədbirlərdə yaxından iştirak edib, müəyyən layihələrə rəhbərlik edib və bu qurumlarda aparıcı məruzələrlə çıxış edib.

O, müxtəlif qitələrdə yerləşən 40-dan artıq ölkədəki yüzlərlə məşhur universitet və elm, mədəniyyət və təhsil ocaqlarında işləyib, çıxışlar edib və onlarla əməkdaşlıq əlaqələri yaradıb.

Dünyanın ən məşhur universiteti olan Harvard Universitetinin bizim bölgəmizdə ən yaxın tərəfdaşı məhz Xəzər Universitetidir.

2001-ci ilin aprel ayında Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı Harvard Universitetində Minsk qrupu çərçivəsində "Dağlıq Qarabağ üzrə danışıqlar: Biz hara gedirik?"

mövzusunda keçirilən Amerika-Azərbaycan-Ermənistanla müzakirələrində Azərbaycanı təmsil etmişdir. Müzakirələrdə Amerikanı Minsk qrupunun amerikalı həmsədri, səfir Keri Kavanau, erməniləri Çikaqo Universitetinin professoru Ronald Suni təmsil etmişdir.

2001-ci ilin yayında bu işlərin davamı olaraq Xəzər Universiteti Harvard Universiteti ilə birgə "Milli kimlik məsələsi" və "Qarabağ: Hərb və sülh" mövzusunda iki konfrans keçirildi. Konfransda Azərbaycanın Xarici İşlər Naziri və başqa dövlət rəsmiləri, xarici ölkə diplomatik nümayəndələri də iştirak edirdilər.

Professor Hamlet İsaxanlının rəhbərliyi ilə ötən illər ərzində dünyanın inkişaf etmiş xarici ölkələrində təhsil almaq, tədqiqat aparmaq və staj keçmək üçün xeyli alim və müəllim göndərilib. Eyni zamanda xarici ölkələrdən Azərbaycana müxtəlif sahələr üzrə alim və müəllimlər dəvət edilib.

Bununla yanaşı o, yüzlərlə azərbaycanlı tələbələri nüfuzlu xarici ölkə ali məktəblərində təhsil almağa göndərib.

Professor Hamlet İsaxanlı xarici ölkələrdən Azərbaycana humanitar yardımlar edilməsi, xarici ölkələrdə Azərbaycan Lobbisinin yaradılması sahəsində də xeyli işlər görüb və bu sahədə uğurla çalışmaqdadır. O, Azərbaycan lobbiçiliyinə dəstək verən və onu təşkil edən ziyalılardan biridir.

Professor Hamlet İsaxanlı Şimali Amerika, Qərbi və Mərkəzi Avropa, Şərqi Avropa və keçmiş Sovet ölkələri, Yaxın Şərq ölkələri, Hind-Çin dünyası və Malayziya kimi dünyanın bir-birindən çox aralı bölgələrində keçirilmiş müxtəlif elmi konfrans, simpozium və forumların iştirakçısı olub, universitetlərdə mühazirələr oxuyub.

Professor Hamlet İsaxanlı bir sıra beynəlxalq və yerli konfransların təşkilat komitəsinin sədri olub. O, bir çox məşhur elm, təhsil, mədəniyyət, siyasət və dövlət adamlarının Azərbaycana gəlməsinə nail olub. Bununla bağlı Xəzər Universitetinin yerləşdiyi Nizami rayonu məşhur azərbaycanlı və əcnəbi şəxsiyyətlərin ən çox baş çəkdiyi bir məskənə çevrilib.

Professor Hamlet İsaxanlı başçılıq etdiyi Xəzər Universitetində dünyanın müxtəlif ölkələrinin Azərbaycandakı bir çox səfirləri ilə, beynəlxalq təşkilatların – BMT, YUNESKO, Avropa Şurası, müxtəlif xarici şirkətlərin, beynəlxalq qurumların rəhbərləri və nümayəndələri ilə dünyanın bir çox görkəmli elm, mədəniyyət xadimləri ilə görüşmüş müxtəlif sahələrə aid fikir mübadiləsi aparıb.

Xəzər Universiteti xarici səfirlik və beynəlxalq təşkilatların, böyük beynəlxalq şirkətlərin, elm və mədəniyyət xadimlərinin ən çox gəlib-getdiyi bir ali məktəbdir.

## Çoxşaxəli elmi yaradıcılıq

Professor Hamlet İsaxanlının elmi yaradıcılığı zəngin və çoxşaxəlidir. İsaxanlı soyadı onun humanitar və sosial elmlər sahəsində apardığı tədqiqatlarda, eləcə də şair kimi işlətdiyi soyaddır. O, geniş ictimaiyyət arasında indi daha çox Hamlet İsaxanlı kimi məşhurdur, riyaziyyat sahəsində və rəsmi sənədlərdə isə İsayev soyadı ilə tanınır. Onun fəaliyyətində humanitar və sosial elmlərlə bağlı araşdırmalar mühüm yer tutur. Universal yaradıcılıq potensialına malik olan alim bu sahələrə dair yüzlərlə məqalə yazaraq dərc etdirib. Bu əsərlərində ədəbiyyat və mədəniyyət tarixi, İslam sivilizasiyası, siyasi tarix, milli kimlik, tərcümə nəzəriyyəsi, tarixi və digər məsələlər özünəməxsus şəkildə tədqiq edilib və öz müəllifinə bu dəfə humanitar və sosial elmlər sahəsində böyük şöhrət qazandırıb.

Alimin elm və təhsil tarixi və nəzəriyyəsi sahəsində yazdığı çoxsaylı əsərləri və ən nüfuzlu beynəlxalq məclislərdə çıxışları onu məşhur elm-təhsil tarixçisi və nəzəriyyəçisi kimi tanıtmışdır. O, ölkəmizdə təhsil islahatlarının aparılmasında, yeni Təhsil Qanununun hazırlanmasında, Bolonya sisteminin həyata keçirilməsində fəal iştirak edir. Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə qovuşması məsələsi məhz onun geniş fəaliyyəti sayəsində gerçəkləşməyə başlamışdır.

Təhsil quruculuğu sahəsindəki digər böyük uğurlarına görə o, Azərbaycan Prezidenti yanında yaradılan nüfuzlu Təhsil Komissiyasının üzvü seçilmişdir. Yeri gəlmişkən, Hamlet İsaxanlı bu komissiyanın tərkibinə daxil edilmiş yeganə ali məktəb rektorudur.

Professor Hamlet İsaxanlının həmmüəllif olduğu "Xaricilər üçün Azərbaycan dili" dərsliyi bu gün həm ölkəmizdə, həm də müxtəlif qitələrdə əcnəbi vətəndaşların ən çox müraciət etdiyi stolüstü kitaba çevrilib.

Tərcümə məsələləri, dil siyasəti və lüğətçilik işinin təşkili sahəsində onun xidmətləri təqdirəlayiqdir. Bu baxımdan alim öz fikir və mülahizələrini dövri mətbuatda dərc etdirdiyi məqalələrində, ayrı-ayrı elmi konfranslardakı çıxışlarında, habelə irihəcmli "Poetik tərcümə" əsərində aydın şəkildə ifadə edərək, mütəxəssislərin diqqətini cəlb edən mülahizələr formalaşdırıb.

Bütün bunlarla yanaşı, professor Hamlet İsaxanlı uzun müddətdir ki, Xəzər Universitəsində hazırlanan və artıq iki cildi nəfis şəkildə işıq üzü görən 6 cildlik "Xəzər İngiliscə-Azərbaycanca Böyük Lüğət"in redaktoru kimi çox ağır zəhmət tələb edən bir fəaliyyətlə də məşğuldur. Bu lüğət Azərbaycan elm və mədəniyyətinin ən sanballı nailiyyətlərdən biridir.

## Milli mədəniyyətin təəssübkeşi

Xəzər Universiteti yarandığı gündən Azərbaycan mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilib. Burada elm və təhsillə yanaşı, mədəniyyət və incəsənətin inkişafı da əsas məqsədlərdən biridir. Gəncliyin cazibə mərkəzi olan Xəzər Universitəsi həm də mədəniyyət, incəsənət və idman ocağıdır.

Müxtəlif elm sahələrində şöhrət qazanmış elm və mədəniyyət xadimləri – professor Sara Aşurbəyli, xalq artisti, bəstəkar Tofiq Quliyev, ABŞ-lı tarixçi alimlər, professor Tadeuş Sveitoçovski, professor Adri Oldtştadt, professor Val Rast, şairə-tərcüməçi Alla Axundova, Türkiyə Futbol Federasiyaları Assosiasiyasının prezidenti Haluk Ulusoy və digərləri Xəzər Universitetinin fəxri doktoru adına layiq görülüblər.



Xəzər Universitetində xalq artistləri Lütfiyar Imanov, Vasif Adıgözəlov, Xuraman və Fidan Qasımovalar, Fərhad Bədəlbəyli və başqaları ilə keçirilən musiqili-ədəbi görüşlər, muğam və klassik musiqi gecələri, milli və beynəlxalq rəqslər sənətsevərlərin könlünü oxşayıb.

Bu ali təhsil ocağında peşəkar futbol, basketbol, şahmat və başqa sahələrdə mühüm uğurlar qazanılıb.

Xəzər Universitetinin Mahnı və Rəqs Ansamblı Azərbaycanda və xaricdə məşhurdur. Ansambl Avropada, Gürcüstanda, Türkiyədə və ərəb ölkələrində təşkil olunmuş festivallarda uğurla çıxış edib, ölkəmizə mükafatlarla qayıdıb.

S.Vurğun, C.Cabbarlı, ədəbiyyat və mədəniyyətimizin digər nəhəngləri haqqında tədqiqatlar aparılmış, yaddaqalan təqdimatlır və elmi toplantılar keçirilmişdir. Eyni zamanda görkəmli elm və mədəniyyət xadimlərindən, şair və yazıçılardan Camal Mustafayev, Süleyman Əliyarlı, Nəriman Həsənzadə, Vidadi Babanlı və başqalarının yaradıcılığı ilə bağlı məclislər təşkil edilmişdir.

## İstedadlı şair

Hamlet İsaxanlı Azərbaycanda və ölkəmizdən kənarda istedadlı şair kimi tanınır. Onun Azərbaycanda çıxmış "Təzadlar" (2001), "Bu da bir həyatdı" (2004) əsərləri Təbrizdə də ərəb qrafikası ilə nəşr olunmuş, üstəlik Təbriz şəhərində



"Şeirə dönən duyğular" (2003) kitabı da çap edilmişdir. Tbilisidə gürcü dilində oxuculara təqdim olunmuş "Ömrün poeziyası" (2004) şeir kitabı poeziyasevərlərin rəğbətini qazanıb. Şeirləri məşhur tərcüməçilər tərəfindən digər dillərə də çevrilmişdir.

*(Daha sonra – 2006-cı ildə Hamlet İsaxanlının şeirlərinin rus dilinə tərcüməsi (tərcüməçi Alla Axundova) "Компрасты» adı ilə Moskvada, 2007-ci ildə isə "Dördlüklər" kitabı Bakıda işıq üzü görmüşdür – **Red.**)*

Şair Hamlet İsaxanlının şeirləri poetik olduğu qədər də musiqili, ürəyəyatan və könülləri ehtizaza gətirəndir. Məhz buna görə də onun müxtəlif şeirləri Azərbaycanın tanınmış bəstəkarlarının diqqətini cəlb edib. Bu baxımdan şairin "Xəzər Universitəm" şeirinə xalq artistləri Ramiz Mustafayev və Vasif Adıgözəlov, "Xəzərimin sorağında" şeirinə Ramiz Mustafayev, "Hicran" şeirinə Vaqif Gərayzadə, "Səni sevdim çox sadəcə", "Lalə", "İnciçiçəyi", "Gözəldir", "Tək qalmaq istəyirəm" şeirlərinə Nailəxanım İsayeva, "Baş açmadım bu dünyadan" şeirinə Elza Seyidcahan, "Qədim sual" və digər şeirlərinə Dilarə Qulamova könülaçan musiqi bəstələyiblər. Bunlarla yanaşı şairin "Gözəldir", "Külək və qız", "Qədim sual", "Yaşamaga nə var ki...", "Tək qalmaq istəyirəm", "Uşaqlıqda qalan buludlar", "Möcüzə gecə", "Görüş yerimiz" şeirlərinə yazılan musiqi nömrələri də dinləyicilərin ən çox sevdikləri mahnılardandır. Bu mahnılar Brilliant Dadaşova, Lütfiyar İmanov, Manana, Rəşidə Behbudova, Elza Seyidcahan, Samir Cəfərov, Dövlət simfonik orkestri və xoru və b. tərəfindən ustalıqla ifa olunur, dinləyici və tamaşaçıların ürəyini oxşayır.

Şair Hamlet İsaxanlının şeirlərini tanınmış şair-tərcüməçi Alla Axundova rus dilinə, İmir Məmmədli gürcü dilinə, Firəngiz Nəsirova, Şəhla Nağıyeva, Mərufə Mədətova ingilis dilinə tərcümə etmişlər. Onun şeirləri həmçinin fars və Çin dillərinə də çevrilmişdir.

Hamlet İsaxanlı yaradıcılıq fəaliyyətinin bir hissəsini poetik tərcüməyə həsr edib. O, V.A.Jukovski, F.İ.Tütçev, A.Fet, N.S.Qumilyov, A.Axmatova, S.Yesenin, F.Baratınski, G.Bayron, W.Bleyk, R.Heccik, G.De Nerval kimi məşhur şairlərin əsərlərini ruscadan, ingiliscədən və fransızcadan Azərbaycan dilinə ustalıqla çevirib.

Hamlet İsaxanlının ədəbi-bədii sahədəki səmərəli fəaliyyəti nüfuzlu mükafatlarla qiymətləndirilib. Onlardan Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiəri Həmkarlar İttifaqı tərəfindən təsis olunmuş "Qızıl Qələm" mükafatını və maarifçilik, milli elmimizin tərəqqisi, Azərbaycan mədəniyyəti və ədəbiyyatı qarşısında xidmətlərinə görə "Səməd Vurğun Fondu" tərəfindən "Səməd Vurğun Mükafatı"nı qeyd etmək olar.

## Sadə və təvazökar insan

Hamlet İsaxanlı ilk baxışda ünsiyyətə çox can atmayan, danışmaqdan çox dinləyən insana bənzəsə də, onunla həmsöhbət olarkən bu ilk hisslər öz yerini başqa bir duyğuya verir. Bir tərəfdən onun sadəliyi və təvazökarlığı insanda heyrət doğurur, digər yandan isə riyaziyyat, fizika, tarix, beynəlxalq münasibətlər, dilçilik, ədəbiyyata aid bilikləri, düşüncə genişliyi, dünyagörüşü, mülahizələri bu sahələrin mütəxəssislərini belə heyran



edir. Klassik elmə, ədəbiyyat və mədəniyyətə dərindən bələd olması şüurlarda yaranan "son dərəcə quru", yalnız rəqəmlər aləminin tərki-dünya yaşayan klassik riyaziyyatçı obrazından əsər-əlamət qoymur.

Hamlet müəllimlə ünsiyyətdə olan hər bir kəs ondakı qeyri-adi cəhətləri sezir. O, həssasdır, şairanə və incəqəlblidir. Onun musiqi, incəsənət və təbiət duyumu güclüdür. Bu barədə xüsusi söhbət açmır, çox danışmağı, təhlil aparmağı sevmir. Bu hisslər onun hərəkətlərində, söz, işarə və eyhamlarında, zövqündə, yumorunda, bu sahaələrə sevgisində özünü göstərir. Özünəməxsus bədii-publisistik üslubu ilə üzə çıxan müxtəlif səpkili yazıları və və nitqləri xüsusi maraq doğurur.

Hamlet İsaxanlı öz xidmətlərindən söhbət açmağı xoşlamır, keçmiş uğurlarına qapanmır, bugünkü nailiyyətlərilə kifayətlənmir, daim yeniliyə, gələcəyə doğru boylanaraq, gələcəyi qurmağa, yaratmağa çalışır.

Tanrı Hamlet İsaxanlıya istedadla yanaşı, rəhbər-lider, təşkilatçılıq bacarığı, geniş dünyagörüşü, möhkəm iradə, nikbinlik, insanpərvərlik də bəxş etmişdir. O, keçmiş zamanlardakı universal zəka sahiblərini, mənəviyyatları ilə nəsillərə örnək olan ziyalılarımızı xatırladır.

Doğrudan da, Hamlet İsaxanlının liderliyi möhkəm bünövrə üzərində dayanıb. Irimiqyaslı işləri planlaşdıran və həyata keçirən bu insan çox geniş dünyagörüşünə malikdir, dərin və rəngarəng bilik sahibidir.

İncə təhlil, alqoritmik düşüncə və duyma qabiliyyəti məsələlərin orijinal həllini tapmaqda ona kömək edir.

"Hər gün, hər saat mükəmməlliyə doğru!" - Xəzər Universitəsinin fəaliyyəti barədə bir çıxışından götürülmüş bu qİsa cümlədə Hamlet İsaxanlının həyat devizi, əsas iş qayəsi olduqca bariz şəkildə öz əksini tapıb.

Xeyirxah, mehriban, gülərüz olduğu qədər də ciddidir, dəqiqdir, prinsipialdır. Qarşısına qoyduğu məqsədə nail olmaq üçün düzgün, dürüst yol seçir və yolundan dönmür. Səbirlə, ötəri işlərə baş qoşmadan düşünə-düşünə, addım-addım, eyni zamanda inadla, inamla irəliləyir.

Yüksək davranış mədəniyyəti, təvazökarlığı, ilhamvericiliyi alim və ziyalıları onun ətrafına cəzb edir.

Həlledici addımların müəyyən edilməsindəki qətiliyi, qərar qəbuletmə məsuliyyətini öz üzərinə götürməsi danılmazdır. O, bunlarla yanaşı, ən yaxşı bildiyi və əvvəlcədən hansı qərar qəbul edəcəyi bəlli olan məsələni belə ətrafındakılarla müzakirəyə çıxarır. Hiss olunur ki, ona hörmət edirlər, onu lider kimi qəbul edirlər, onu sevirlər. O isə həmişə hamıya bərabər olduğunu, heç kimdən yuxarıda durmadığını, bütün hərəkətləri ilə, bütün səmimiyyəti ilə ortaya çıxarır. Başqalarının uğurlarına sevinmə qabiliyyəti, dərdlərinə və qayğılarına şərikolma xüsusiyyəti göz qabağındadır.

Dərin düşüncə, nəzəriyyə, təcrübə, əməli iş, axtarış istəyi ona bir alim və qurucu kimi əbədi şöhrət və başucalığı gətirən nəcib məziyyətlərdir.

Tanrı Hamlet İsaxanlıdan bunların heç birini əsirgəməyib. Ömrnün ən yetkin, zəkalı çağlarını yaşayan alim, elm təşkilatçısı və şair dünəninə, bu gününə sevinclə, fəxarətlə nəzər salır. Arayır, axtarır, kəşf edir. Gələcəyə ümidlə, nikbinliklə baxır. Inanırıq ki, elmdə, təhsildə, ədəbiyyat və poeziyada, quruculuqda seçdıyi xeyirxah, lakin çətin, keşməkeşli yol Hamlet İsaxanlını yeni uğurlara qovuşduracaq.



## Xeyriyyəçi

Hamlet İsaxanlı Allahın ən sevimli bəndəsidir. Allah ona iti ağıl, hərtərəfli qabiliyyət, təmənnasız xeyirxahlıq, saf mənəviyyat, zəngin bilik, güclü poetik düşüncə, əvəzsiz ilahi nemət olan şairlik istedadı bəxş edib. O, ensiklopedik zəka sahibidir: bir şəxsiyyətdə xeyriyyəçilik, alimlik, şairlik və insanlıq üzvi vəhdət şəklində birləşmişdir.

Hamlet İsaxanlı respublikamızdakı qaçqınları, yetim uşaqları, maarif və mədəniyyət sahələrini həmişə diqqət mərkəzində saxlayır. O, ata-ana qayğısından məhrum olmuş uşaqlara himayədarlıq edərək, onların ali təhsil almasına və ailə qurmasına, həmçinin ana yurdu Qarayazındakı doğma məktəbə xeyriyyəçilik yardımı göstərir.

Ulu peyğəmbərimiz Məhəmməd Əleyhissəlam öz vəsiyyətlərində buyurmuşdur: *"Ya Əli, dörd əməli yerinə yetirən üçün Allah behiştdə bir yer hazırlayacaq: yetimlərə əl tutub onları böyüdən; şikəst və əlillərə köməklik göstərən; ata-anasının qayğısına qalan və tabeliyində olanlarla xoş rəftar edən"*.

Hamlet İsaxanlı millətimizin gələcəyi olan uşaqlara xüsusi qayğı göstərir və himayəçilik edir. O, haqlı olaraq uşaqları millətin bünövrəsi hesab edir, ona görə də istedadlı uşaqları tapıb üzə çıxarmağı, onların qayğısına qalmağı özünün ən başlıca mənəvi borcunuz hesab edir.

*Ulu Peyğəmbərimiz təsadüfi deyil ki, Vətəni sevmək imandandır,* deyirdi. Hamlet İsaxanlı Vətəni təkcə sevməklə kifayətlənmir, həm də onun hərtərəfli inkişafı üçün, dünya xalqları arasında şərəfli yer tutması naminə əsil övlad, əsil oğul fədakarlığı göstərir. Bu, onun ən şərəfli amalıdır. Hamlet İsaxanlının yeganə amalı mənəvi-maddi potensialını doğma xalqın rifahının, intellektual səviyyəsinin yüksəldilməsinə xidmət etməkdir.

Hamlet İsaxanlı əsil ziyalı, geniş qəlbli vətəndaş kimi yerliçilik, regionçuluq psixologiyasına qarşı çıxır, o taylı, bu taylı, Dərdəndli, Borçalılı, Göyçəli, Zəngəzurlu, Qərbi Azərbaycanlı bütöv Azərbaycançılıq uğrunda mübarizə aparır. O, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını sevir, onun dərdini öz dərdi, sevincini öz sevinci hesab edir. Bu, alicənablıq və böyüklükdür. Bu, hər şeyin fövqündə durmaq bacarığı, insanlığın uca mərtəbəsində, ali zirvəsində şərəfli yer tutmaq qabiliyyətidir.

***Knyaz ASLAN,***
***Vahid ÖMƏRLİ***

*("Hamlet İsayev (İsaxanlı): Bu dünyaya nə gətirdim" (Bakı, 2005) kitabından).*

# ŞƏRƏFLİ ÖMRÜN 60-cı AŞIRIMI...



*Tanrıma minnətdaram ki, qəlbimdə Hamlet müəllimə hədsiz sevgi, sayğı bitirərək onun haqqında söz demək iqtidarına yüksəltmişdir.*

*Ömür bir yol – getməli,*
*Baxıb cığır, izinə,*
*Hərdən söhbət etməli.*
*Yaratmalı, qurmalı,*
*Kömək, hoya yetməli.*
*Könüllər sarayında,*
*Əbədilik bitməli!*

İnsan doğulduğu gündən ömür yolunun yolçusu olur. Bu yol bölünməz olsa da onu müəyyən meyarlara görə bir neçə mərhələyə: körpəlik-uşaqlıq; məktəb-təhsil; gənclik-yetkinlik; ailə-valideynlik; müdriklik-kamillik illərinə bölmək olar. Qət edilən bu ömür yolunda büdrəməyənlər kamillik zirvəsinə şərəflə yetə bilirlər. Belə insanlar saf-təmiz, mətin-iradəli, mehriban-səmimi, haqq-halal və zəhmətsevər-xeyirxah xüsusiyyətlərə malik olurlar. Onlarla tərəf müqabili, həmkar, yol yoldaşı olmağın özu xoşbəxtlikdir, şərəfdir, şan-şöhrətdir.

Mayası halal olan əsl-nəcabətli insanların qəlbi vətən, millət sevgisi ilə dolu olur. Bu məziyyətləri sadalamaqda məqsədim, məramım qeyd olunanları öz şəxsiyyətində cəmləşdirən bir milli təəssübkeş, vətən eşqi ilə yanan peşəkar bir elm fədaisi haqqında söz açmaq mərtəbəsinə çatmaqdır. Belə şəxslər haqqında söz açmaq həm asandır, həm çətindir, həm məsuliyyətlidir, həm də sevindiricidir. Bu o insandır ki, yaxın günlərdə ömrünün 60-cı zirvəsində qərar tutacaqdır...

O, üzmək istəyirdi... İstəyinə yetmək üçün uzmək! Onun istəkləri isə çox uzaqlarda idi. Uşaqlıqda doğulduğu sıx ormanlı Qarayazıya hürlük nəğməsi öyrədən Kür cayında o tay-bu taya çox üzsə də onu yetərli saymırdı.

Bu səbəbdən də xeyli zamandan sonra Kürə baş vurub Xəzərə üzməyə üz tutdu, üzdü də. Xəzər onu qucaqladı. Çözdü, düzdü istəyini, uzaqları soraqladı. "Xəzər" adlı ocaq çatdı, elm ocağı. Çatdığı ocaq o qədər gurlaşdı, nurlaşdı ki, okeanlara üzmək istədi. Okeanın nahəng dalğalarını məharətlə yarıb keçdi. Dünyaya göstərdi ki, kökü dərində olan millətin övladı nəyə qadirdir. Çox ölkələrin, o cümlədən Amerikanın mötəbər elm ocaqlarında öz bilik və metodlarını tədris etdi, hamını heyran qoydu.

Bütün dünya onun yaratdığı elm ocağında təhsil almağa önəm verdi. Xəzər Unverstəsində

təsil almaq istəyi ilə bir çox ölkələrdən gənclərin axını başladı. İndi bu elm ocağında yaxın-uzaq ölkələrin vətəndaşları təhsil alır.

Bu gün Azərbaycan Respublikası, eləcə də dünya təhsil sistemində öz dəst-xətti olan alim, pedoqoq, marifçi, şair, ictimai xadim Hamlet İsaxanlı dünya korifeyləri cərgəsində bərqərar olmuşdur.

60 yaş ömrün elə məqamıdır ki, bir anlığa nəfəs dərib arxaya-ötən illərə boylanmağa, ötüb keçənləri saf-çürük edib özün-özünə hesabat verməyə dəyər. Bu mənada Hamlet müəllimin yaşadığı illərlə fəxr edib, sabaha daha inamla boylanmağa haqqı vardır. Çünki, o, çoxlarına örnək ola biləcək elə ömür yaşayır ki, hələ gənc yaşlarından bir nəslin, bir elin ağsaqqalı zirvəsinə yüksəlmişdir.

Bunlarla bərabər o, gözəl ailə başçısı, vətənə gərəkli övladların atası, sevimli nəvələrin babasıdır.

Tanrıma minnətdaram ki, qəlbimdə Hamlet müəllimə hədsiz sevgi, sayğı bitirərək onun haqqında söz demək iqtidarına yüksəltmişdir.

Hamlet müəllimi ömrünün və fəaliyyətinin kamillik zirvəsində doğum günü münasibəti ilə təbrik edir, ona əmək fəaliyyətində, yaradıcılığında yeni-yeni uğurlar, cansağlığı və yüzüncü aşırımı aşan mənalı ömür arzulayaraq qəlbimin dərinliyində zümzüməyə çevrilmiş nəğməmi ərmağan edirəm.

## Hamlet – "Xəzər" qoşadı...

*Qara yazı, ağ yazı,*
*Çiçək açdı ağ yazı.*
*Baş vurdu dərinlərə,*
*İstəmədi dayazı.*

*Borçalının budağı,*
*Baldı dili, dodağı.*
*Çölü cənnət məkandı,*
*İçi gövhər yatağı.*

*Kürü belinə kəmər,*
*Meşəsi Kürdən əmər.*
*Palıdına, sərvinə*
*Arxalanar güvənər.*

*Ad aldı övladları,*
*Çıxdı şəkər dadları.*
*Halal kökdən, mayadan*
*Çin oldu muradları.*

*Hamleti işıq oldu,*
*Elə yaraşıq oldu.*
*Onun yaratdığına*
*Milyonlar aşıq oldu.*

*"Xəzər" günəşə döndü,*
*Hər tərəfdən göründü.*
*Zərrəsindən dadanlar*
*Al qumaşa büründü.*

*Dünya axdı işığa,*
*Pay almağa aşığa.*
*Ocaqdan od aldılar,*
*Mindilər yaraşığa.*

*Hamlet – "Xəzər" qoşadı,*
*Bağı bir tamaşadı.*
*Bülbüllər yuva qurdu,*
*Zəka doğdu yaşadı.*

*Mülkədar yar adına,*
*Minnətdar Yaradana.*
*Dostu aşırımlar aşdı,*
*Minib köhlən atına.*



***Mülkədar NADİR***
*Azərbaycan Respublikası Vergilər Nazirliyinin*
*Tədris Mərkəzinin müəllimi,*
*Yazıçılar Birliyinin üzvü, şair*

# "Hələlik gedirik üzü sabaha..."




Hamlet İsaxanlının təzə çıxan "Dördlüklər" kitabı onun yaradıcılığında yeni bir yüksəlişdir. Yüksəldikcə həyatın nəbzi onun şeirlərində daha sərrast vurmağa başlayır. Hamlet İsaxanlı yaradıcılığının, o cümlədən yenicə çapdan çıxmış "Dördlüklər"in əsasını şairin insanlara, təbiətə, müasir proseslərə mütəfəkkiranə münasibəti təşkil edir. Şair bu yeni kitabında elə problemlərə toxunmuşdur ki, bunlar təkcə söz adamlarını, şair və yazıçıları deyil, bütün bəşəriyyəti maraqlandırır və düşündürür. Burada müasir həyat, müasir insan, müasir zaman problemləri mərkəzi planda əks etdirilmişdir. Əlbəttə, dünya, zaman, ömür kimi məfhumların şərhi müxtəlif dövrlərdə obrazlı fikrin mərkəzi problemi olmuşdur. Amma söhbət ondan gedir ki, problemlərin qoyuluşunda və bədii həllində şairin orijinallığı, hadisələrə müasirlik prizmasından doğru yanaşmaq iqtidarında olması özünü açıq-aydın büruzə verir. Hamlet İsaxanlı predmetin fəlsəfi-ictimai mahiyyətinə enməyi, təsvir, yaxud tərənnüm obyektinin arxasında gizlənən məzmunu göstərməyi üstün tutur. Sadəcə "filosofluq" etmir, fəlsəfi ümumiləşdirmələr təhlil predmetinin özünə, konkret həyat materialına əsaslanır:

**Dünya doğrudan da xeyli qocadır,**
**Fikirdən dərindir, sözdən ucadırş**
**Görüb bildiyimiz dünya deyil ki,**
**Dünya açılmayan bir pəncərədir.**

Hamlet İsaxanlının poeziyası onun xarakterinə çox oxşayır: təbii və məğrur, milli və ümumbəşəri. Daha doğrusu, Hamlet İsaxanlı şeiri, taleyi və şəxsiyyəti bütövlük təşkil edən şairlərdəndir. Onun poetik "mən"inin gücü təbiiliyində və əsilliyindədir. Bu poeziyada süni və qeyri-təbii heç nə yoxdur. Gerçəklikdən alınan süjet, ürəkdən axıb gələn poetik hiss, özünəməxsus fərdi ovqat poetik amala çevrilir.

**Dünyanı doldurub min fitnə-fəsad,**
**Yarəb, bu işlərə sən özün əl qat.**
**Bəşəri bədəndən, nəfsdən deyil,**
**Ruhdan, məhəbbətdən yoğurub yarat!**

Dördlük müasir şeirin tez-tez müraciət etdiyi formalardan olsa da, klassik şeirin rübai, bayatı, təcnis, qoşma, gəraylı ənənələri zəminində yaranmışdır. Hamlet İsaxanlının "Dördlüklər"ində toplanmış rübailər, bayatılar bugünkü şeir təcrübəmizin hadisəsi kimi müasir çalar kəsb etməklə yanaşı, həm də öz sadəliliyi, lakonikliyi, yetkinliyi ilə diqqəti cəlb edir. Maraqlıdır ki, şair təbliğ və tərənnüm etdiyi fikirləri quru, ritorik şəkildə yox, konkret hadisələrin bədii təsviri şəklində təqdim edir:

**Sevgini zarafat sayma, əziz dost!**
**Sevdiyin insandan doyma, əziz dost!**
**Güldən-gülə qonan kəpənək kimi**
**Hər gözün tutana uyma, əziz dost!**

Hamlet İsaxanlının "Dördlüklər"ində toplanmış rübai, bayatı və məcazlar ənənəvi motivlər üzərində intişar tapsa da, həm də ondan aydın şəkildə fərqlənir. Şairin yaratdığı dördlüklər öz ən yaxşı nümunələrində bayatı və rübai ənənəsinə sadiq qalır: buradakı müdrikin və aşiqin simasında klassik lirik "mən"in varisini tanımaq o qədər də çətin deyil. O da mənalı ömrün, ilhamla sevməyin, müdrik olmağın bugünkü dərslərini öyrədir və təbliğ edir. Lakin Hamlet İsaxanlının dördlüklərində poetik təzad və fəlsəfi paradoks fikir və hökmlərlə yanaşı, həm də həyati təsnifat və detallar arasındadır. Yer üzündəki bütün eybəcərliklərə naqisliklərə görə allahdan "mədəd" diləmək də konkret sosial mahiyyət kəsb edir:

**Dünyanı tutubdur dinsiz, imansız,**
**Yaşamaq ağırdır, həyat amansız.**
**Mədəd rəhim olan allaha qalıb,**
**Yaxşılar fağırdır, yamanlar qansız.**

Hamlet İsaxanlı dünya, tale, həyat, insan və təbiət haqqında öz poetik duyğular və düşüncələr aləmi olan şairdir. Xeyir və şər, işıq və zülmət, yalan və riya rəngləri onun poeziyasında qəribə bir harmoniya və vəhdət yaradır. Şairə görə, insan ömrü, onun dramatik mürəkkəbliyi elə bu rənglərdən ibarətdir. Şeirlərindəki sərbəst düşüncələrə daxili vəhdət verən bu fəlsəfi ideyaya şair insanı min il yaşamağa qoymayan səbəbləri də əlavə edir - özgə dərdinə həssaslıq, narahatlıq və cavabdehlik hissi. Lakin bu rənglərsiz ömürü də şair mənasız hesab edir.

**Yer, göy arasında ömür sürürəm,**
**Ömür nədir? -Sevinc üstəgəl fəğan.**

"Dördlüklər" həm forması ilə həm də, dil-ifadə xüsusiyyətləri ilə folklora, təbiətə doğmalığı əks etdirir. Hər dördlük özünü təbiətin bir parçası hesab edən şairin təbiilik qarşısında heyrətidir:

**Əyildim otlara, diz üstə çökdüm,**
**Güllərin ətrini içimə çəkdim.**
**Günəş də telini çəmənə səpdi,**
**Daha nə möcüzə istəyəcəkdim?!**

Didər tərəfdən, şair şeirdə sintaksisin, poetik leksikonun yeni imkanlarını üzə çıxarır, canlı danışıq, şikayət, dua, alqış poetikasının ünsürlərini dördlüyə gətirir.

**Şükür, yıxılmadım, ayaq üstəyəm**
**Ruhun fəziləti daha böyükmüş!**

Yaxud:

**Bəndənin gücü çatmaz,**
**Cəzanı Allah versin.**

Medvedev hasn't announced yet his program of future Russian military policy, despite the statement that "Russia deserves a better place in the world". But the fact that Medvedev is so much concerned with internal economic development of Russia it is not likely that he may be the initiator of a new arms race or any military stand off with foreign countries. Medvedev is likely to understand the importance of positive relations with the Western democracies for Russian business and economy.

Foreign reaction on Medvedev's nomination has been positive so far. U.S. Secretary of State Condoleezza Rice said on December 11th at a State Department news briefing that Medvedev, is "a very intelligent person. He is of another generation." Rice also noted Medvedev's efforts to diversify the Russian economy and his work "to wire the country with the Internet."

Yet it is also clear that Medvedev's policy will be defined by a great number of factors, like the influence of various elite, lobby and business groups and hopefully by Russian people as well.

The ideological background of modern Russian political life

The speech by Vladimir Putin at Expanded Meeting of the State Council on Russia's Development Strategy through to 2020 that was announced on the 8th of February stressed the huge progress Russia has achieved during the last 8 years. Modern Russia has overcome economic crisis and default; terrorist threat and territorial claims, regions held against each other; the decline in standard of living and brain drain.

The comparison between the period of the 1990s and the current situation, so vividly depicted by the President, might seem to become a common phrase too often inserted into the speeches of the Kremlin officials or experts.

However the issue is not only in the fact that last years of the 20th century turned out to be a disaster for Russia. The case is that the decade saw liberal politicians ruling the country. As a result, for the majority of Russians the whirlpool of horror in 90's became a synonym for liberal ideas. Liberal democratic values proclaimed by those who were in power had no social or economic basis to be brought about and most people couldn't enjoy them. Therefore in practice political rights and basic needs of people were ignored and violated.

On the contrary, Putin's presidency again made Russia a strong actor on the world arena, bringing stable development to the state – just what the Russian population was longing for.

The new President will be elected on the 2nd of March. Is there any ideological heritage left by Mr. Putin to his successor in order to promote stability in the future?

The answer consists of the two crucial elements that are Sovereignty and Democracy. Bringing together these notions form Sovereign Democracy – the set of ideas the Russian political, economic and social systems are based on.

It can be argued that the Constitution of the Russian Federation recognizes ideological diversity and "no ideology shall be proclaimed as State one". However this legal formula presupposes that no views, values or opinions are obligatory in Russia. Sovereign democracy happened to be an attempt to create a set of ideas that can inspire the nation for future success. Perhaps it is one of the best attempts made by Russian authorities to restore legitimacy of democratic ideas among common people.

Formulated by Vladislav Surkov, the Deputy Chief of Staff of the Presidential Executive Office in several speeches, sovereign democracy can be explained after thorough studying of his article "Nationalization of the Future. Paragraphs pro sovereign democracy".

The article gives a clear determination of sovereign democracy that is "the way of political life in society when the authorities, their institutions and their acts are elected, formed and directed only by the Russian nation throughout its diversity and integrity in order to provide material prosperity, freedom and justice for citizens, social groups and for people the nation consists of". Thus this notion attracts social attention and settles the issue of the interrelationship between personal freedom that is democracy and national independence – sovereignty.

Democracy is not an institutional façade; it is the only possible method for open societies to exist. Throughout civilization's development democracy has proved its competence since it allows the society to mobilize resources more effectively and to speed up the dissemination of information as well as the decision-making process. Thus Russia turned to democracy to provide her competitiveness.

"New Russian leadership should recognize the importance of further democratic transition not only in public speeches but with concrete government actions. Dmitry Medvedev has all necessary preconditions to lead Russia to a completely innovative and open society: a strong economy, vast public support, his own education and experience. Hope he won't miss this unique chance."

In addition democratic evolvement is logically explained by the European essence of Russian culture. Even a brief look at Russian history (Russia has been a key actor in European politics for centuries), Russian mentality (unlike Chinese harmonic perception of the world, the Russia n mentality tends to the European conflict view), Russian philosophical heritage (the political theory "Moscow being the Third Rome" so popular in the 15-16th centuries) suggests that Russia belongs to European development paradigm.

Moreover, sovereign democracy appears to be a European idea. Mr. Surkov insists that sovereign democracy "is a widespread notion recognized by politicians" and provides readers with quotations from Warren Christopher, a US 63rd Secretary of State and Romano Prodi, a former President of the European Commission. The matter of vital importance for Russia is to introduce – for the first time in her history – "people conservative technology". Democracy emphasizes the humanization of political system, the value of personal dignity, opinion, health, property etc. Being a process, democracy asks for a permanent action and the one taken by Russia should be creation of united civil society and nationally oriented intellectual elite. Dashing 90's left a pattern that can not be easily overcome that is mistrust among population toward power. Reliable leading class is aimed at improving the situation.

As a result the measures are to bring competition and cooperation to the society of free people making it more active. Being a democratic society Russia strives to integrate to the World economy and to the World knowledge system; to benefit from globalization.

Nevertheless openness doesn't mean a loss of identity. On the contrary, Russia is an independent nation and she tries to find equilibrium between participation in globalization and preservation of sovereignty. Russia wants to be independent and to avoid imposing the transnational or nongovernmental organizations will on her. Sovereign democracy means that the source of power as well as of the control over its natural resources is situated in Russia, in Russian nation.

From the legal point of view such an approach might seem rather antique most constitutions assert the principle of sovereignty. However the notion means something more than a simple legal formula. The best test of it is the events near the borders of Russia – a series of so-called "orange revolutions" in the CIS countries, which showed a fake of written sovereignty. Therefore what Russia is interested in is the real freedom and independent ruling.

Like other political doctrine sovereign democracy has some imperfections. The most remarkable one is its idealistic character. Once Mr. Surkov said: "Developing democracy in our country we are interested in democratization of international relations as well". But whether it is possible to introduce fair rules of cooperation to world politics, especially in this period of globalization, becomes a crucial question in the theory of international relations. The answer has not been found yet.

In the last decade of the 20th century liberal democracy became embezzlement, corruption and the collapse of law and order in Russia. Nevertheless, being a European state, Russia has no other choice but to turn to democracy, a democracy that might correlate with Russian political culture. Thus appeared sovereign democracy. Implementation of sovereign democracy to political life allowed great progress in economic and social development. Now Russia is a stable state willing to cooperate with others and to promote democracy in the world.

***Recommendations***

*1. New Russian leadership should recognize the importance of further democratic transition not only in public speeches but with concrete government actions.*

*2. Dmitry Medvedev has all necessary preconditions to lead Russia to a completely innovative and open society: a strong economy, vast public support, his own education and experience. Hope he won't miss this unique chance.*

*3. Despite its present electoral success Russian authorities should realize that the absence of any forms of opposition will lead the country to stagnation first political then economic and social.*

*4. Russia should continue its integration into major world economic institutions like the WTO and engage in a greater number of economic projects in Russia and abroad, providing clear rules for foreign investment and investing its resources in mutually beneficial projects.*

*5. Russia may start a new fresh dialog on arms control and global non-proliferation with the new American administration.*

***Maria Botchkova,***
***Dmitry Udalov***

*Araşdırma*

# MÜASİR İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

Müasir şəraitdə ədəbiyyatın kataloqlaşdırılmasının inkişafı mexanikləşdirilmə və avtomatlaşdırma vəsaitlərinin tətbiqi ilə bağlıdır. Kataloqlaşdırma işlərində tətbiq edilən texniki vasitələr birinci növbədə surətçıxaran və çoxaldıcı maşınlardır.

Hazırda tətbiq edilən mərkəzləşdirilmiş kataloqlaşdırılma bir kartoçkanın 50-100 və daha çox nüsxələdə çoxaldılmasını tələb edir. Kartoçkaların çoxaldılmasında «Era», «Veqa», «Elektrofot», «Kseroks» kimi aparatlardan istifadə edilməsi bu işi xeyli sürətləndirir. Bu aparatlar kartoçkaların fotosurətini çıxarır və istənilən qədər çoxaltmağa imkan verir. Son vaxtlar kataloqlaşdırma prosesində elektron maşınların tətbiqi xeyli genişlənmişdir.

Məlum olduğu kimi, kartoçka və kataloqlarının hazırlanması çox uzun və mürəkkəb prosesdir. Elektron maşınların tətbiqi bu işi xeyli səmərələşdirir. Ölkəmizin bir sıra iri kitabxanalarında toplu (birləşmiş) çap kartoçkalarının hazırlanmasında uzun illər bu maşınlardan istifadə edilmişdir. M.F.Axundov adına Dövlət Kitabxanasında, Respublika Elmi Texniki Kitabxanada bir sıra birləşmiş kataloqların hazırlanması və elektron rəqəm hesablayıcı maşınlar müvəffəqiyyətlə tətbiq edilmişdir.

Texniki vasitələr təkcə məlumat-axtarış sistemlərinin yaradılmasında deyil, onlardan istifadə prosesində də geniş istifadə olunur. Bu işdə perfokartların tətbiqi əhəmiyyətlidir. Perfokartlar tərtib edildikdə irihəcmli kataloq və kartotekaların tərtibi, təşkili, xüsusilə materialların axtarış prosesi xeyli asanlaşır.

Mərkəzləşdirilmiş kitabxana sistemlərinin (MKS-lərin) informasiya işlərinin planlaşdırılmasının əsas bölmələrindən biri kitabxana-informasiya və biblioqrafik informasiya xidmətidir. Həmin bölmənin MKS-lərdə icra edilməsi mümkün olan yarımbölmələrindən biri informasiya tələbatının öyrənilməsi adlanır.

İnformasiya işi ilə məşğul olan bütün idarələrin, o cümlədən kitabxanaların ilkin və son məqsədi tələbatçılara, oxuculara daha yaxşı və istiqamətli xidmət göstərməkdən ibarətdir. Bu məqsəd isə ancaq informasiya tələbatını real şəkildə öyrənmək əsasında təmin edilə bilər. İnformasiya tələbatı yalnız xidmət proseslərini optimallaşdırmaq üçün öyrənilmir, kitabxana işinin bütün istiqamətləri üçün vacib məlumatların meydana çıxarılmasına imkan verir.

İnformasiya tələbatı mahiyyəti etibarilə tələbatçının (oxucunun) müəyyən obyekt, predmet, problem, məsələ və s. haqqında bildikləri ilə bilmədikləri arasında dialektik əlaqədir. Tələbatçının konkret fəaliyyəti prosesində qarşılaşdığı elmi və ya istehsalat çətinlikləri, bilmədiyi məsələlər onda peşə informasiya tələbatı yaradır. Bundan başqa, tələbatçının şəxsiyyət kimi formalaşıb inkişaf etməsi üçün vacib olan digər informasiya tələbatı (məs.: siyasi, estetik, bədii və s.) formaları da vardır. İnformasiya tələbatının öyrənilməsi metodlarına, texnologiyasına və alınan nəticələrin təhlilinə dair yüzlərlə adda elmi və metodik ədəbiyyat nəşr edilmişdir. Məsələn, kitabxana işçilərinə yaxşı məlum olan "Советский читатель", "Книга и чтение в жизни небольших городов", "Специалисть-библиотека-библиография", "Книга и чтение в жизни советского села" adlı monoqrafik tədqiqatlar bilavasitə potensial oxucu tələbatının öyrənilməsinə və təhlilinə həsr edilmişdir. Bu tədqiqatlarda kompleks konkret-sosiologi, statistik və biblioqrafik metodlar tətbiq edilmişdir (2).

Elmi ədəbiyyatda informasiya tələbatının (oxucu marağının) öyrənilməsinin birbaşa, bilavasitə (müşahidə, müsahibə, iş gününün fotoqrafiyası və s.) və dolayı mütəqil (anketləşdirmə, oxucu formulyarlarının təhlili, işçi sənədlərinin öyrənilməsi və təhlili biblioqrafi isnadların təhlili və s.) metodları fərqləndirilir. Hər bir göstərilən metodun müsbət və mənfi cəhətləri də olur. Buna görə də çox zaman informasiya tələbatını öyrənərkən bir-birini təshih edən bir neçə metod tətbiq edilir. Lakin hələlik məlum deyildir ki, müəyyən konkret-sosioloji tədqiqat metodu kitabxana işinin hansı sahəsində daha səmərəli istifadə edilə bilər, onun tədqiqindən alınan nəticələr kitabxana-biblioqrafiya təcrübələrinin hansı istiqamətlərinə və necə tətbiq edilməlidir. Çünki bir sıra hallarda konkret-sosioloji və digər metodların informasiya tələbatını öyrənmək üçün tədqiq edilməsi nəticəsində lazimi elmi-təcrübi tövsiyələr işlənir, lakin həmin tövsiyələrin konkret istiqamətlərdə tətbiqedilmə texnologiyası nədənsə unudulur. Bəzən vərəq, kağız üzərində tövsiyələr real və səmərəli görünür, tətbiq zamanı isə ümidləri doğrultmur, xeyli çətinliklər yaradır.

İnformasiya orqanlarının və bəzi kitabxanaların

təcrübələri göstərir ki, informasiya tələbatı real, təcrübi baxımdan ayrı-ayrı tələbatçı kateqoriyalarına görə öyrənilməlidir. Çünki bütün tələbatçı kateqoriyalarının informasiya tələbatının eyni vaxtda öyrənilməsi və informasiya təminatı nisbətən mürəkkəbdir. Digər tərəfdən, müəyyən tələbatçı kateqoriyalarının informasiya tələbatının öyrənilməsində buraxılan metodik səhvlər sonrakı qrupları öyrənərkən aradan qaldırıla bilər.

XX əsrin 70-ci illərinin sonlarından başlayaraq informasiya orqanları, xüsusilə idarə və müəssisə informasiya şöbələri informasiya tələbatını öyrənmək üçün "Mütəxəssisin informasiya sorğusu kartı"ndan istifadə edirdilər. İlk növbədə istehsalat və idarəetmə aparatı işkilərinin informasiya tələbatı öyrənilirdi. Bəzi MKS-lərin təcrübəsində mütəxəssislərin sorğu kartı əsasında rəhbər dövlət və iqtisadi idarəetmə aparatı işçilərinin informasiya tələbatının ilk növbədə öyrənilməsi məqsədəuyğun hesab edilirdi. Tədqiqatçılar belə hesab edirlər ki, göstərilən qrup tələbatçıların informasiya tələbatının öyrənilməsi ilk növbədə onların informasiya təminatını təşkil etməyə, MKS-in informasiya xidmətinə və ümumiyyətlə fəaliyyətinə müsbət münasibətin yaranmasına səbəb olur. Digər tərəfdən, hər bir rayonda, şəhərdə təbii ki, dövlət və iqtisadi idarəetmə aparatı işçiləri olur; həmin kateqoriya tələbatçılara informasiya xidməti göstərən ayrıca informasiya orqanları yoxdur. İnformasiya sorğusu kartına əlavə olaraq profil mövzularının siyahısı tələbatçılara verilə bilər. Lakin mövzu siyahısı olmadan kartın tələbatçı tərəfindən sərbəst doldurulması daha əlverişli hesab edilir. Çünki mütəxəssis öz informasiya tələbatını sərbəst və hərtərəfli ifadə etmək imkanına malik olur. Lakin qeyd edilmiş mövzulara uyğun olaraq MKS-in maddi-texniki bazasının formalaşdırılması, informasiya xidmətinin təşkil edilməsi xeyli vaxt və vəsait tələb edir (2).

İnformasiya sorğusu kartlarının miqdarı 500-dən çox olduqda operativ axtarış məqsədilə K-5 markalı kənarları perforasiyalı parfokartlardan istifadə etmək və sadə mexanikləşdirmə vasitələri əsasında mexanikləşdirilmiş axtarış sistemi yaratmaq olar. Bu məqsədlə bir neçə elmi-metodik ədəbiyyat nəşr edildiyindən həmin axtarış sisteminin yaradılması barəsində geniş danışmağa ehtiyac duyulmur.

Təcrübələr göstərir ki, informasiya tələbatının öyrənilməsi nəticəsində bir sıra hallarda eyni məzmunlu mövzulara rast gəlmək olur. Məsələn, "Azərbaycan Respublikasının müstəqilliyə keçməsi dövründə iqtisadi siyasət" , "Aqrar-sənaye kompleksinin idarə edilməsi", "Xalq təsərrüfatında yeni texnika və texnologiyanın tətbiqinin səmərəlilik göstəricilərinin hesablanması" və s. mövzular eyni zamanda bir neçə tələbatçı tərəfindən sorğu kimi verilə bilər. Buna görə də "İnformasiya sorğusu kartlarında" eyni mövzuların müqayisəsi və birləşdirilməsi əsasında "Sorğunun tematik kartları" yaradılmalıdır.

İnformasiya tələbatının "Mütəxəssisin informasiya sorğusu kartı" əsasında öyrənilməsi yeganə üsul deyildir. İnformasiya tələbatını öyrənmək üçün metodlar çoxdur. Lakin təklif edilən metod konkretdir, göstəriciləri etibarilə yığcamdır və tələbatçıya öz informasiya tələbatını daha geniş planda ifadə etmək üçün sərbəstlik verir. İstənilən metodun tətbiqi zamanı bacardıqca sualların miqdarını azaltmaq və konkret işlərin icrasına xidmət edən məlumatların əldə edilməsinə çalışmaq lazımdır. İnformasiya tələbatını təcrübi informasiya xidmətinin düzgün təşkili baxımından öyrənmək üçün tələbatçının ünvan xarakteristikası (familiyası və inisialı, iş yeri, telefonu,vəzifəsi), onu maraqlandıran mövzular, vacib sənəd növləri və informasiyanın hansı müddətə verilməsi əsas göstəricilərdir. Digər məlumatlar (məs.: tələbatçının yaşı, milliyəti, cinsi və s.) təcrübi informasiya xidməti baxımından o qədər də vacib rol oynamır (1).

Bir sıra informasiya mərkəzlərində və kitabxanalarda tələbatçılara fərdi informasiya təminatının ən geniş yayılmış metodlarından biri informasiyanın seçilmiş yayılması sistemidir. Bu tip sistemlər tələbatçıların sorğularını konkret və operativ formada ödəmək, sorğunun dəyişdirilməsi şəraitində informasiya təminatını inkişaf etdirmək, tələbatçılara (abonentlərə) müntəzəm əks əlaqəni təmin etmək kimi vacib xüsusiyyətlərə malikdir. İnformasiyanın seçilmiş yılması sistemləri əl üsulu və avtomatlaşdırılmış vasitələrinin tətbiqi əsasında aparılır. Bu zaman həm fərdi (ayrı-ayrı şəxslər), həm də kollektiv abonentlərə (tələbatçılara), yəni müəssisələrə, idarələrə, şöbə, bölmə və laboratoriyalara, fermer təsərrüfatlarına; istehsal briqadalarına informasiya xidməti göstərilə bilər.

***Afət RZAYEVA***
*Bakı Dövlət Universitetinin dissertantı*

***Ədəbiyyat***

*1. Белоногов Г. и Котов Р. Автоматизированные информационно-поисковые системы.–М., 1977.–168 с.*

*2. Rüstəmov Ə. Bölgə (rayon) mərkəzləşdirilmiş kitabxana sistemlərində sadə informasiya texnologiyası: planlaşdırılması və tətbiq mexanizmi.–B., 1993.–120 s.*

# RESPUBLİKA İNFORMASİYA AXTARIŞ SİSTEMLƏRİNİN FORMALAŞMASI

Yüksək ixtisaslı kadrlar hazırlanmasında mühüm rol oynayan ali məktəblərdə tədris və elmi-tədqiqat işinin öz xarakterik xüsusiyyətləri vardır. Belə ki, burada müxtəlif tədris növləri – mühazirə, seminar, laboratoriya məşğələləri, tədris-istehsalat təcrübəsi tətbiq edilir. Tələbələr elmi işlərə cəlb edilir, təqdimatlar hazırlayır, sonuncu kursda isə buraxılış işi yazılar. Bütün bunlar göstərir ki, tələbələrin hələ ilk kurslardan tədrisin və elmi-tədqiqat işinin əsaslarına yiyələnmələrində informasiya axtarış sistemləri vərdişlərinə malik olmaları başlıca şərtlərdən biridir. Təsadüfü deyil ki, müasir informasiyalaşdırma əsrində ali və orta məktəb tələbələrinin, ümumiyyətlə, bütün peşə sahiblərinin kitabxana-biblioqrafiya biliklərinə yiyələnməsi başlıca məsələlərdən biri kimi qarşıya qoyulmuşdur. Odur ki, bu məsələ ilə bağlı bir sıra ali məktəblərdə "İxtisasa giriş" fənni tədris edilir, kitabxanalarda geniş iş aparılır.

"İnformasiya axtarışı" dedikdə müvafiq mövzu üzrə kitabların, məqalələrin seçilməsi və təhlil edilməsi nəzərdə tutulur. Əlbəttə, təhsilin ilk illərində hər bir tələbə müəllimin köməyi ilə fərdi işə, axtarışlar aparmaq vərdişlərinə yiyələnirlər. Bu işdə kitabxanalar da onların köməyinə çatır. Bütün bunlar tələbələrin, habelə digər oxucu qruplarının mədəniyyətinin formalaşmasına, peşə hazırlığının yüksəlməsinə öz müsbət təsirini göstərir. Onu da göstərək ki, ali kitabxanaçılıq təhsilində tədris edilən kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, informatikanın əsasları fənlərinin tədrisi onların ədəbiyyat axtarışı vərdişlərinə yiyələnmələrinə həlledici təsir göstərir, həm də ilk mərhələdə seminar və praktiki dərslərə, yoxlama və imtahanlara hazırlaşmalarında da informasiya axtarış sistemləri mühüm rol oynayır.

Tələbələrdə informasiya axtarış tələbatı hər şeydən əvvəl mühazirə mövzusunu öyrənmək, seminarlara, praktiki məşğələlərə hazırlaşmaq, yoxlama işlərini yerinə yetirmək, referat, kurs və buraxılış işi yazmaq, elmi konfranslarda, dərnəklərdə çıxış etmək, ictimai tapşırıqları yerinə yetirmək və s. ilə sıx surətdə bağlıdır. Digər oxucu qruplarının isə müvafiq şəkildə peşə hazırlığı, təhsil və digər məsələlərlə əlaqədar sorğu və tələbləri yaranır. Tələbələrin təhsili və elmi-tədqiqat işi ilk növbədə tədris prosesi ilə bağlıdır.

Tədris və elmi-tədqiqat işində informasiyanın axtarışı iki mərhələdə yerinə yetirilir: birinci mərhələdə mövzu müəyyənləşdirilir, sonra ədəbiyyat siyahısı tərtib edilir. İkinci mərhələdə isə toplanmış mənbə nəzərdən keçirilir və lazımı informasiya əldə edilir. Belə axtarış ilk növbədə kurs və ya buraxılış işi yazarkən, referat, yaxud çıxış hazırlayarkən daha zəruridir.

Çox zaman seminar, yoxlama və imtahanlar üçün hazır ədəbiyyat siyahıları olur. Belə siyahılar dərsliklərdə, metodik və tədris ədəbiyyatında, proqramlarda verilir ki, bunu da müəllimlər, ictimai kafedralar hazırlayırlar. Lakin tələbələr bununla kifayətlənməməli, öz dünyagörüşlərini daha da genişləndirmək üçün əlavə ədəbiyyat axtarmalıdırlar.

Ümumiyyətlə, nəşrləri əsasən iki qrupa ayırmaq olar: a) rəsmi sənədlər, monoqrafiyalar, dərsliklər, elmi-kütləvi kitablar və jurnallar, soraq-informasiya nəşrləri və s. b) biblioqrafik göstəricilər, siyahılar, monoqrafiyaların icmalı, dərsliklər və digər mənbələr.

Birinci qrupa daxil olan əsas ədəbiyyat, ikinciyə daxil olan isə köməkçi ədəbiyyat hesab edilir. Biblioqrafik göstəricilərə universal, mövzu, sahəvi, şəxsi və s. daxildir.

Dövlət biblioqrafik göstəricilərində çap əsərlərinin uçot-qeydi aparılır. XX əsrin 60-70-ci illərində Kitab Palataları rüblük, illik salnamələr çap edirdi. Bununla da oxucuların cari ədəbiyyata olan tələbatı ödənilirdi.

Elmi-köməkçi biblioqrafik göstəricilərdən elmi peşə-istehsalat sorğularının ödənilməsində geniş istifadə edilir.

Tövsiyə biblioqrafik vəsaitləri təhsil, şəxsi təhsil, kitab təbliği işində geniş istifadə edilir. Belə göstəriciləri əsasən böyük elmi kitabxanalar, elmi informasiya mərkəzləri çap edir. Kitabxanalar oxuculara xidmət işində onlardan geniş istifadə edirlər.

Ali məktəblərin kitabxanaları öz fondunu tədris prosesi ilə bağlı ədəbiyyatla da komplektləşdirir. Ali məktəblərdə ayrı-ayrı kafedralar zəruri ədəbiyyatla təchiz olunur ki, bundan da tələbələr geniş istifadə edirlər. Kitabxanaların fondu əlifba və sistemli kataloqlarda, dövri mətbuat yazıları isə kartotekada əks etdirilir. Bu cür iş müvafiq təsnifat cədvəli həyata keçirilir. İnformasiya-biblioqrafiya fondu yaradılır. Tələbələrin tədris və elmi-tədqiqat işləri ilə bağlı kataloq və kartotekalardan müstəqil istifadə etmək vərdişləri aşılanır.

Ümumiyyətlə, kitabxanalarda kütləvi informasiya materialları iki hissədən ibarət olur ki, bu sahə üzrə də axtarış aparılır: 1) sənəd fondu (ilkin informasiya mənbələri); 2) soraq-biblioqrafiya aparatı (ikinci informasiya mənbələri).

İnformasiya mənbələrinə aşağıdakılar daxildir: a) çap edilməyən materiallar, (hesabatlar, dissertasi-

yalar və s.), maşınla oxunan materiallar, audovizual materiallar, dövri nəşrlər, məqalələr; b) Kataloq və kartotekalar (əlifba, sistemli, predmet, toplu); c) Biblioqrafik materiallar (dövlət, elmi-köməkçi, tövsiyə, mövzu və s).

Bütün bunlar informasiya axtarış sisteminin əsas istiqamətlərini təşkil edir və bu axtarış sistemi kitabxanalarda, ali məktəblərin kafedra və kabinələrində təşkil edilir.

Bu göstərir ki, tədris və elmi-tədqiqat işində və digər sahələrdə qarşıya qoyulan məqsədə nail olmaq üçün hər bir oxucunun özünə lazım olan ədəbiyyatı harada və necə axtarmaq vərdişləri çox böyük əhəmiyyət kəsb edir. Bu işdə kataloq və kartotekalar, müxtəlif biblioqrafik nəşrlər ön planda durur.

Tələbələrin, habelə digər oxucu qruplarının informasiya axtarış sistemində müəllimlər, kitabxanaçı-biblioqraflar, tədris kabinetlərinin işçiləri, kafedra laborantları onların yaxın köməkçiləridir. Müntəzəm və səmərəli informasiya axtarış sisteminə yiyələnmək tələbələrin tədris və elmi-tədqiqat fəaliyyətini istiqamətləndirməyə, yüksək ixtisaslı kadr kimi yetişməsinə imkan yaradır. Odur ki, ölkəmizdə geniş informasiya axtarış sistemləri yaradılmışdır. Məsələn, rəsmi və biblioqrafik mənbələr sistemi, soraq-informasiya fondu, onlardan istifadənin forma və metodları, kitabxanaların kataloq və kartoteka sistemləri. Bu sistem ali məktəblərdə tədris və elmi-tədqiqat işini əhatə edir. Əsas vəzifə odur ki, hər bir oxucu bu sistemdən istifadə etməyi bacara bilsin. Ali məktəbdə başlanan informasiya axtarış vərdişləri mütəxəssisin bütün həyatı boyu davam etdirilməlidir. Məhz bu baxımdan kitabxanaların üzərinə böyük vəzifələr düşür. Birinci növbədə informasiya axtarış sistemlərinin səmərəli təşkili əsas vəzifələrdən biridir.

İnformasiya funksiyası dedikdə isə kataloq və kartoteka sistemi kitabxanaların vahid fondunu əks etdirməli, onu çoxaspektlilik istiqamətində açmalıdır.

Əyanilik, əlverişlilik prinsipləri kataloq və kartoteka sistemindən oxucuların istifadəsini asanlaşdırmalıdır. Bu işdə hər bir kataloqun daxili və xarici quruluşunun düzgün tərtibatı mühüm rol oynayır.

Kataloq və kartotekalar sisteminin quruluşu fondun quruluşu ilə sıx surətdə bağlıdır, onların hər ikisi təsnifat sxemləri əsasında qurulur. Fondun həcminin artması kataloqların genişlənməsinə də təsir edir. Ümumiyyətlə, kitabxana kataloqu bir və ya bir qrup kitabxanın fondunda olan çap əsərlərinin və digər sənədlərin müəyyən prinsip əsasında tərkibini göstərən siyahıdır.

Oxucuların təhsil, elmi və mədəni səviyyəsinin yüksəlməsi informasiyaya olan hədsiz tələbat və şəxsi təhsil sisteminin inkişafı kitab və kitabxanaya böyük ehtiyac yaradır. Bu tələbat əsasən kataloqlar vasitəsilə yerinə yetirilir. Kataloqlar iki əsas funksiyanı ödəyir:

1) Tövsiyə funksiyası (kitabın təbliği, mütaliənin istiqamətləndirilməsi, şəxsi təhsilə kömək və s.);

2) İnformasiya funksiyası (mütəxəssislərin elmi və istehsalat xarakterli sorğularının ödənilməsi, informasiya verilişi, soraq-biblioqrafiya işlərinin aparılması və s.).

Bu kataloqlar içərisində əlifba və sistemli kataloq mühüm rol oynayır. Dünya ədəbiyatının görkəmli klassiki İ.V.Hote sistemli kataloqu olmayan kitabxananı pəncərəsi olmayan qaranlıq otağa bənzətmişdir.

Kitabxanaların fondunun daha da zənginləşməsi, oxucu sorğularının getdikcə artması və mürəkkəbləşməsi kitabxana fondunun oxucular üçün hərtərəfli açılması zəruriyyətini yaradır və fonddan oxucuların istifadəsinin asanlaşdırılması kataloqların tərtib edilməsi yolu ilə həyata keçirilir. Kataloqlar kitabxana fondunun tərkibinin açılmasında və fondda olan kitablar haqqında oxuculara informasiya verilməsində, habelə elmi biliklərin oxucular arasında geniş təbliğ edilməsində ən mühüm vasitədir. Kitabxanalar oxucuların mütailəsinə rəhbərlik edilməsində, onların etik-əxlaqi görüşlərinin formalaşmasında, oxucu sorğularının qısa müddətdə ödənilməsində kitabxana işinin tərkib hissəsi olan kataloqlardan geniş surətdə istifadə edir.

Kitabxanalar öz fondlarını oxucular arasında daha yaxşı təbliğ etmək məqsədilə geniş kataloq sisteminə malikdirlər. Kitabxana kataloqları elmi-texniki inqilab dövründə yaşayan və fəaliyyət göstərən müasir oxucuların ümumi dünyagörüşünün formalaşmasında mühüm rol oynayır, onun ideya-siyasi baxışlarının, elmi və mədəni səviyyəsinin kamilləşməsinə böyük təsir göstərir, oxucu mütaliəsinin istiqamətləndiriməsi işinə kömək edir.

Beləliklə, informasiya axtarış sistemlərinin düzgün təşkil edilməsi biblioqrafik işin keyfiyyətlə həyata keçirilməsinə şərait yaratdır.

***Zahidə RZAYEVA,***
*Bakı Dövlət Universitetinun dissertantı*

**Ədəbiyyat**

*1. Xələfov A. Kitabxanaşünaslığa giriş.–Bakı, 2003.–400 s.*

*2. Справочник по единому республиканскому справочно-информационому фонду по естественным и техническим наукам Азербайджанской ССР.–Баку, 1987.–40 с.*

# USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi



*Nağıl*

# CAMIŞ İLƏ PƏLƏNG

Biri var idi, biri yox idi, bir pələng var idi, bir də bir camış. Onlar qonşuluqda yaşayırdılar və çox dost idilər. Yeri gəldi-gəlmədi camış pələngi başqaları üçün tərifləyir, dostluqlarından söz açardı. Pələng də camışla gəzməyi özü üçün fəxr sayar, bununla öyünərdi. Uzaq-uzaq yerlərə gedəndə də camış pələngi belində aparardı. Qoymazdı ki, yorulsun.

Günlərin birində yenə də camış pələngi belinə alıb uzaq-uzaq yerlərə gəzməyə gedirdilər. Bir çəməlikdə onlar naxıra rast gəldilər. İnəklər, buğalar, öküzlər bunları görüb ağız-ağıza mələşdilər.

-Ay aman, bu nədi? Deyəsən göydən daş yağacaq. Bir baxın, pələng camışın belində gəzir. Allah, sən özün rəhm elə.

Camış dilləndi:

-Nə ağız-ağıza verib artıq-əskik danışırsınız? Biz pələnglə çoxdanın dostuyuq. Hara lazımsa, oraya birlikdə gedərik. Dostumu ona görə belimdə gəzdirirəm ki, o, yorulub əziyyət çəkməsin.

İnəklərdən biri dedi:

-Dostluğunuza sözümüz yoxdu. Amma bilirsiz, bir az pis çıxmasın, axı bir-birinizə heç yaraşmırsınız?

Camışla pələng deyilənləri qulaq ardına vurub, saymazyana-saymazyana yollarına davam etdilər. Bir qədər yol getmişdilər ki, indi də onların qabağına at ilxısı çıxdı. Əvvəlcə atlar gözlərinə inanmadılar. Sonra diqqətlə baxıb gördülər ki, heç o yan-bu yan deyil, camış pələngi belinə mindirib aparır. Atlar qulaqlarını şəkləyib elə kişnədilər, elə kişnədilər ki, aləmi kişnərti səsi bürüdü.

-Sahiblərimiz bizi minib uzaq-uzaq kəndlərə, şəhərlərə, ölkələrə gedirlər. Dağlar-dərələr aşır, meşələrdən keçirik. Amma heç yerdə belə şey görməmişik. Pələng hara, camış hara. Camış, bəlkə sən deyəsən, bu nə həngamədir?

Camış bir az da hirslənmiş kimi dedi:

–Nə əhvalat olacaq, a balam! Görmürsən biz dostuq. Niyə bu dostlğumuzu gözünüz götürmür?!

Atlar:

-Qəribə dostluqdur. Bundan bizim gözümüz su içmir. Allah axırını xeyir eləsin.

Camışla pələng buradan da uzaqlaşdılar. Bu səfər onlar bir sürü ilə qarşılaşdılar. Bunları görən qoyun-keçi bir-birinə dəydi. Bu ona baxdı, o buna. Bir mələşmə başladı ki, gəl görəsən.

Camış bildi ki, bunlar da inəklər, öküzlər, atlar kimi başlayacaqlar ki, bir-birinizə yaraşmırsınız, "Bundan gözümüz su içmir", "Allah axırını xeyir eləsin", daha nə bilim nə, nə. Odur ki, camış onları qabaqladı:

-Bilirsiz, biz pələnglə dostuq. Bunun heç kimə dəxli yoxdur. Yəqin siz də, ay qoyunlar, keçilər, necə ki, inəklər, öküzlər, atlar demişdi, deyəcəksiniz ki, biz bir-birimizə yaraşmırıq. Eşidin, bilin, lap yaxşı yaraşırıq. Siz hamınız bizim paxıllığımızı çəkirsiz.

Onlar qoyunlardan cavab gözləmədən buradan da uzaqlaşdılar. Ancaq deyilənlər öz işini görmüşdü. Tezliklə pələng camışdan ayrıldı.

Camış çayın qırağında yaşamağa başladı. Pələng isə meşəyə getdi. Aradan xeyli vaxt keçdi. Bir gün camış fikrə gəldi ki, gedib pələngə baş çəksin. Görsün necə yaşayır, necə dolanır. Sən demə, elə pələng də camışı yoxlamağa gəlirmiş.

Onlar bir talada görüşdülər. Oradan-buradan xeyli söhbət etdilər. Bir-birinin gün-güzəranını soruşdular.

Birdən pələng dedi:

-Bilirsən dost, neçə gündür yol gəlirəm. Yeməyə də əlimə bir şey keçməyib. Bərk acmışam. Gəl, elə səni yeyim.

Camış dedi:

-Əziz dostum, mən də elə neçə gündü ki, səni axtarıram. Sənin kimi mən də yamanca acmışam. Dur birlikdə yeməyə bir şey axtarıb tapaq.

Pələng:

-Yox, qardaş, mən heç şey axtaran deyiləm. Elə hazır sən buradasan da.

Camış dedi:

-Axı bu necə olar. Biz ki, dostuq. Dost da dostu yeyərmi?

Bu sözlər də pələngə təsir etmədi. Elə öz sözü üstə durdu ki, durdu. İşi belə görən camış dedi:

-Yaxşı, bir halda ki, sən məni yemək istəyirsən, qoy sən deyən olsun. Amma bir şərtim var. Gəl əvvəl döyüşək. Əgər sən qalib gəlsən, parçala məni, ye. Yox, mən qalib gəlsəm, onda özündən küs.

Pələng bu şərtə çox şad oldu. Axı o, özünü heyvanların ən güclüsü, qüvvətlisi hesab eləyirdi. Ona kim qalib gələ bilərdi?!

Pələng camışla razılaşdı və hər ikisi döyüşə hazırlaşmağa başladı. Pələng meşədən çoxlu sarmaşıq yığıb özünə sarıdı. Camış isə bataqlığa gəldi. O, bataqlıqda uzanıb o tərəf-bu tərəfə çevrildi. Bütün bədəni palçıq oldu. Sonra çıxıb günəşin qabağında uzandı. Palçıq onun bədənində qupquru quruyub daşa döndü. Belə-belə camış üç dəfə bataqlığa girdi, özünü günəşin qabağında qurutdu. Oradan pələngin yanına gəlib dedi:

-Dost bəlkə fikrindən dönmüsən. Bəlkə heç vuruşmayaq.

Pələng düşündü ki, aha, deyəsən, camış ondan qorxur. Odur ki, bir az da cürətləndi:

-Sən nə danışırsan, vuruşmamaq nədi? Mən hazır yeməyimi qoyub dağa-daşa düşəcəyəm? Heç elə şey yoxdu.

Camış dedi:

-Yaxşı bir halda ki belədi, mən hazır. İndi de görək əvvəlcə sən hücum edəcəksən, ya mən?

-Əlbəttə, mən,- deyə pələng qeyzlə dilləndi.

Camış:


-Olsun. Sən üç dəfə hücüm et. Sonra da mən üç dəfə səni buynuzlayacayam.

Pələngi gülmək tutdu. O, camışı elə birinci hücumunda parçalayacağına əmin idi. O, bu əminliklə də camışın üstünə tullandı. Amma onun ağzına palçığın qurumuş kəsəyindən başqa heç nə gəlmədi. Elə ikinci, üçüncü dəfə də belə oldu.

Növbə camışa çatdı. O, uzun buynuzları ilə bir vuranda pələngin bədəninə sarıdığı sarmaşıqlar qırılıb töküldü. Camış ikinci dəfə buynuzlarını pələngə elə ilişdirdi ki, onun qarnı cırıldı. Pələng gördü ki, yox, dükan tozdu. Bir təhər camışın əlindən xilas olub meşəyə tərəf süründü.

O vaxtdan da camışla pələng düşməndi. Camış pələngi görən kimi, buynuzlarını ona tərəf sazlayır. Pələng isə camışı gördükdə özünü görməməzliyə qoyub yan keçir.

*Bəzəyəni*
***Bəhlul ABDULLA***



# NOVRUZ TAPMACALARI

Harayçıyam, hayçıyam,
Bahar sözlü payçıyam.
Sinəm ağ, belim qara,
Quyruqdan da qayçıyam.
*(Qaranquş)*

Qab-qacağım, yarağım,
Başımda da darağım,
Uzaq yerlərdən uçub,
Mən özümü yetirrəm.
Baharın xəbərini
Elə müjdə gətirrəm.
*(Şanapipik)*

Qar altında yatmışam,
Dərdə, qəmə batmışam.
Qaranquşlar gəlməmiş
Torpaqdan boy atmışam.
*(Novruzgülü)*

Kəmərim qırmızı,
Yaşıl köynəyəm,
Novruz bayramında
Hər bir evdəyəm.
*(Səməni)*

Alov deyil, fanaram,
Ayı, günü sanaram.
Novruzun xonçasında
Hər bir ada yanaram.
*(Şam)*

Novruzda bəzənərəm,
Qapısız günbəzəm,
Üzüm ağ, içim sarı,
Qırmızı, yaşıl, sarı.
*(Yumurta)*

Özüm isti, rəngim al,
Ağrı-dərdi məndə sal.
*(Tonqal)*

Papağı qara,
Köynəyi ağdı.
Novruz süfrəsində
Təpədi, dağdı.
*(Plov)*

Ağzı bağlı, bizə tanış,
Ayparadı, üstü naxış.
*(Şəkərbura)*

Dəyirmi, tağalağam,
Qat-qat paltar geyərəm.
*(Qoğal)*

Hər yanı taxta,
Yumru bəy otaqda.
*(Fındıq)*

Taxta təndir gələr xoşa,
Çörəyi bişirər qoşa.
*(Qoz)*

NOVRUZ TAPMACALARI

# Vətən bayatıları

Bu yoldan ötən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən yaxşı.

Bu yerlər tala yeri,
Bürc yeri, qala yeri,
Qiyamət o gün qopar,
El köçə, qala yeri.

Yazı yaza bilmirəm,
Qara poza bilmirəm.
Vətən orda, mən burda,
Ayrı dözə bilmirəm.

Araqçını yan qoydum,
İçində biyan qoydum,
Yurduma kəc baxanın,
Ürəyinə qan qoydum.

Çuxamın ağı bizdən,
Belinin bağı bizdən,
Düşmən gəlib yurd salsa,
Alar xoş çağı bizdən.

Burda yolum oldu tən,
Varmı bu yoldan ötən,
Bu dünyada şirin şey
Bir anadı, bir vətən.

Ağlayarlar, gülərlər,
Göz yaşını silərlər,
Keçən yurdun qədrini
Düşən yurdda bilərlər.

Çən, duman düzə neylər?
Zülfün tök üzə neylər?
Ov bizim, ovlaq bizim,
Yad ovçu bizə neylər?

Kəm baxtı sönən qərib,
Qürbətdə ölən qərib,
Bəxtəvər günə düşdü
Vətənə dönən qərib.

Su gələr arxa, haray!
Tökülər çarxa, haray!
İgid qürbətə düşsə,
Çağırar arxa, haray!

Belədimi qürbət el,
İgid oğul, qürbət el,
Adamı tez qocaldar
Qərib ölkə, qürbət el.

Əzizim sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
El-oba bizə qaldı.

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

*Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən*
*"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.*
*"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,*
*türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,*
*ali və orta təhsil haqqında yeniliklər,*
*poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,*
*elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə*
*sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -*
*müsabiqələr və s. könlünüzcə olacaq.*
*"Xəzər Xəbər" gənclərin və oxuyan,*
*düşünən hər kəsin dərgisidir.*
*"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın*
*hər yerində oxuyurlar.*
*"Xəzər Xəbər"i siz də oxuyun!*
*"Xəzər Xəbər"ə siz də yazın!*
*"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal*
*köşklərindən ala bilərsiniz.*
*"Xəzər Xəbər" ayda iki dəfə çıxır.*

***Ünvan: Bakı şəhəri,***
***Məhsəti küçəsi, 11.***
***Əlaqə telefonları: 421-79-16***
***421-10-93.***
***E-mail: xazarxabar@khazar.org***